# Ölkəmiz sülh, sabitlik, tərəqqi və rifah tərəfdarıdır

*Vətən müharibəsindən, yeni reallıqların yaranmasından sonra dünya informasiya vasitələrinin Azərbaycana marağı daha da artıb. Hələ müharibənin getdiyi dövrdə dünyanın bir çox nüfuzlu mətbuat orqanının nümayəndəsi dövlət başçısı İlham Əliyevlə görüşmüş, müsahibələr götürmüşdü. Müsahibələr zamanı müxtəlif xarakterli sualları cavablandıran Azərbaycan Prezidenti provokasiya xarakterli suallara cavab verərkən belə, siyasi sayıqlıq nümayiş etdirmiş, həmişə olduğu kimi, sadəliyi ilə seçilmişdi. 2020-ci il noyabrın 3-də İtaliyanın "La Repubblica" qəzetinə müsahibədə maraqlı bir məqam var. Müxbirin: "98 faiz ermənilərin məskunlaşdığı ərazidə mümkün qələbəni qazanmağın sizin üçün hansı çətinliyi olacaq?" - sualına cavab verən Prezident İlham Əliyev demişdir: "Bu ərazidə bəlkə indi daha çox erməni məskunlaşıb, çünki bütün azərbaycanlılar didərgin salınıblar... Mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağda yaşayanların hamısı orada sülh və ləyaqət içində yaşamağa davam edəcəkdir... Dağlıq Qarabağda yaşayan ermənilər... bu gün Dağlıq Qarabağdakı xunta rejiminin basqısı altında olduğundan daha yaxşı həyat sürəcəklər".*

Təbii ki, bunlar adi sözlər deyil, dövlət başçısının vədi idi və o, vədini doğrultmağa qadirdir. Bunu düşmən üzərində tarixi qələbəmiz də, müharibədən dərhal sonra işğaldan azad edilmiş torpaqlarda başlanan abadlıq-quruculuq işləri də təsdiqləyir.

Təxminən bir il sonra, 2021-ci il oktyabrın 13-də Azərbaycan Prezidenti yenə də İtaliyanın həmin nüfuzlu mətbuat orqanı - "La Repubblica" qəzetinə müsahibə vermişdir. Azad edilmiş ərazilərdə gedən işlərdən danışan dövlət başçısı: "Bakı azad edilmiş ərazilərə sərmayə qoyacaqmı?" - sualına: "Biz artıq sərmayə yatırırıq. Azad edilmiş ərazilərlə bağlı xüsusi investisiya proqramı qəbul edilib. Cari il üçün nəzərdə tutulmuş məbləğ təqribən 1,3 milyard ABŞ dolları təşkil edir. Sərmayə qoyuluşu əsasən infrastruktur layihələrinədir..." - deyə cavab verib və reallaşdırılan layihələrdən danışıb.

Prezident Cənub Qaz Dəhlizi ilə bağlı suala cavab verərək deyib ki, əsas diqqət Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan Trans-Adriatik boru xəttinin başa çatdırılmasına yönəldilib. Ötən ilin sonuncu günü - dekabrın 31-də ilk təbii qaz Avropaya nəql edilməyə başlanıb və İtaliya artıq Azərbaycandan qaz qəbul edir. Cənub Qaz Dəhlizi İtaliya bazarını 8 milyard kubmetr və hətta bundan artıq həcmdə qazla təmin edəcək. Yəni, bu iş artıq başa çatdırılıb.

Prezident İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində də diqqətçəkən məqamlar var. Müharibədən ötən bir il ərzində Azərbaycan-Ermənistan münasibətlərində nə kimi dəyişikliklərin baş verdiyini, danışıqlar masasına qayıtmağın, baş nazir Paşinyanla bir araya gəlməyin mümkün olub-olmaması ilə bağlı sualın cavabında, əslində danışıqların və təmasların başladığını, Azərbaycan, Ermənistan və Rusiyanın Baş nazirlərinin müavinləri səviyyəsində əməkdaşlıq formatının və bu formatın kommunikasiyaların açılması məsələsinə həsr olunduğunu deyib. Bildirib ki, yaxın günlərdə BMT Baş Assambleyasının sessiyası çərçivəsində Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü baş tutub. Bu, müharibə bitəndən sonra birinci dəfə baş verib. Görüş konstruktiv və ümidverici olub. Müxbirin "Minsk qrupu vasitəçiliklə məşğuldur, ancaq kömək təklif edən digərləri də var. Məsələn, Avropa İttifaqı minaların təmizlənməsi və sərhədlərin delimitasiyasında yardım göstərməyi təklif edib. Bu məsələ tərəfinizdən nəzərdən keçirilirmi? Postmüharibə dövründə Avropa İttifaqı hər hansı bir rol oynaya bilərmi?" - sualını cavablandıran İlham Əliyev Avropa İttifaqı ilə rəsmi görüşlər keçirildiyini, Avropa İttifaqının delimitasiya prosesində iştirak etmək və hər iki tərəfi razılığa gətirməklə bağlı niyyətini, etdiyi təşəbbüsü Azərbaycan tərəfinin dəstəklədiyini, lakin Ermənistanın tərəddüd etdiyini diqqətə çatdırıb. Deyib ki, Avropa İttifaqı ilə iqtisadi yardım məsələsi ətrafında da müzakirələr aparılır: "Bizə məlumdur ki, Avropa İttifaqı Ermənistan üçün 2,6 milyard dollar həcmində iqtisadi yardım paketinin hazırlanması prosesindədir. Bu proses artıq başa çatmış da ola bilər. Əlbəttə, bizim gözləntimiz ondan ibarətdir ki, həmin həcmdə məbləğ eyni şərtlərlə Azərbaycana da təklif edilsin".

2021-ci il noyabrın 29-da Rusiyanın "Rossiya-1" telekanalında efirə gedən "Kreml, Putin, Moskva" verilişində Rusiya Federasiyasında işgüzar səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən Soçi hava limanında bu veriliş üçün alınan müsahibə yayımlanıb. İlham Əliyev deyib: "Biz Azərbaycanda bunu çox müsbət qiymətləndiririk. Mən bunu bu görüşdə də demişəm. Rusiya Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması üçün çox mühüm rol oynayır. Görüşün yekunlarına əsasən qəbul etdiyiniz, nəqliyyat şəbəkələrinin açılması, delimitasiya üzrə komissiyanın işə hazırlanması üçün atılan addımlar barədə birgə Bəyanat buna dəlalət edir. Azərbaycan bütün bu məsələləri dəfələrlə irəli sürüb və Rusiya bunu həmişə dəstəkləyib. Buna görə, bugünkü görüş də çox böyük əhəmiyyət kəsb edir".

Ötən il dekabrın 15-də İspaniyanın "El Pais" qəzetinə müsahibəsində Prezident İlham Əliyev bir çox sualları cavablandırıb. Müxbirin Beynəlxalq Ədalət Məhkəməsinin bəyannaməsinin Azərbaycanın qarşısında qaldırdığı məsələlərlə bağlı: "...Sizin hökumətinizdən erməni milli və ya etnik mənşəyini hədəfə alan irqi nifrət və diskriminasiyanın təhriki və təbliğinin qarşısını almaq, 2020-ci il münaqişəsi ilə əlaqədar əsir götürülmüş və saxlanılan bütün şəxsləri zorakılıq və bədən xəsarətlərindən qorumaq və onların təhlükəsizliyini və qanun qarşısında bərabərliyini təmin etmək üçün lazımi tədbirlər görməyi xahiş edib. Bu istiqamətdə hansı addımlar atılıb?" - sualına cavab olaraq Azərbaycan Prezidenti deyib: "Mən deyərdim ki, bu qurumun qəbul etdiyi qərar balanslaşdırılmışdır. Əgər siz Ermənistana verilən tövsiyəni oxusanız, yəqin ki, daha dəqiq və daha israrlı ifadələr görəcəksiniz... İndiyədək biz 100-dən çox saxlanılan şəxsi azad etmişik. Cinayət törədənlər isə mühakimə olunublar. Beləliklə, bu insanlar heç bir beynəlxalq konvensiya ilə hərbi əsir hesab edilə bilməzlər... Burada heç bir hərbi əsir yoxdur".

Həmin il dekabrın 18-də Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə verilən müsahibədə də gündəmdə olan məsələlərə toxunulub. Maraqlı məqamlardan biri Avropa İttifaqının dəstək paketi ilə bağlıdır. Müxbirin: "Avropa İttifaqı bu yaxınlarda Ermənistana 2 milyard dollar həcmində dəstək paketini elan etdi. Ukraynaya da 2 milyard dollara yaxın yardım ayrılacaq. Səhv etmirəmsə, Azərbaycana isə sadəcə 140 milyon dollar ayrılacaq. Yəni, burada çox böyük fərq var. Sizcə, nə üçün belədir? Belə bir qərar haradan qaynaqlanır?" - sualına cavabında isə ölkə başçısı bu cür bölgünün ədalətli olmadığını, hər iki ölkənin real ehtiyaclarına uyğun gəlmədiyini bildirib.

Regionda sabitliyin təmin edilməsində ölkə iqtisadiyyatının şaxələndirilməsinin rolundan bəhs edən Azərbaycan Prezidenti bununla bağlı sualı cavablandırarkən deyib ki, Azərbaycan bağlanan bütün müqavilələrə dəqiqliklə əməl edir və bu da tərəfdaşları arasında ölkəmizə inamı, etibarı artırır, qonşularımızla münasibətləri yaxşılaşdırır. Ümid edirik ki, Ermənistanla da münasibətlər normallaşacaq. Onlar "bu qızıl fürsəti həqiqətən dərk etməlidirlər...".

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 26 yanvar.- S.3.